**_Beynəlxalq və regional təşkilatlarla aparılan ardıcıl iş Azərbaycanın bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilməsində xususi rol oynayıb. Nəticədə son illər ərzində ölkəmizin BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da möhkəmlənib._**

# Azərbaycan həqiqətləri beynəlxalq müstəvidə dəstəklənir




Azərbaycan hazırda beynəlxalq aləmdə etibarlı tərəfdaşlığını daha da möhkəmlətmək üçün ayr-ayrı dövlətlərlə münasibətlərin dinamik inkişafına da xüsusi əhəmiyyət verir. Prezident İlham Əliyevin təkcə son vaxtlarda bir sıra ölkələrin rəsmi şəxslərini respublikamıza səfərləri çərçivəsində qəbul edərkən səsləndirilən fikirlər, eləcə də dövlətimizin başçısına ünvanlanan təbrik məktublarında, telefon zənglərində ifadə olunan münasibətlər yuxarıda qeyd olunanları bir daha təsdiqləyir. Bu, əslində, Prezident İlham Əliyevin haqq-ədalət uğrunda mübarizəsinin təntənəsi, yürütdüyü müstəqil siyasətin məntiqi nəticəsi kimi diqqət çəkir.

Azərbaycanın uğurlu xarici siyasətinin nəticəsidir ki, bu gün aparıcı mövqeyə malik olan dünyanın nüfuzlu dövlətlərinin, eləcə də beynəlxalq və regional təşkilatların bir çoxu beynəlxalq münasibətlər sistemində respublikamızın tərəfdaşı kimi çıxış edir. Həmin qurumlar sırasında dünyanın siyasi və iqtisadi həyatında, habelə beynəlxalq münasibətlər sistemində xüsusi diqqət çəkən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) da mühüm yer tutur.

Azərbaycan İƏT-in fəal üzvü kimi bu quruma daxil olan dövlətlərlə də dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərə daim xüsusi önəm verib. Prezident İlham Əliyev çıxışlarının birində deyib: "İslam Əməkdaşlıq Təşkilatı ənənəvi olaraq Azərbaycanın haqlı mövqeyini dəstəkləyən beynəlxalq təşkilatdır. Vətən müharibəsi zamanı, eləcə də savaşdan sonra bu dəstəyi biz daim hiss etmişik, müharibənin nəticələrinin qəbul etdirilməsi üçün İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətini mən yüksək qiymətləndirirəm".

Bu il martın 22-23-də Pakistan İslam Respublikasının İslamabad şəhərində İƏT Xarici İşlər Nazirləri Şurasının "Birlik, ədalət və inkişaf naminə tərəfdaşlığın qurulması" mövzusunda keçirilən 48-ci sessiyası da bu baxımdan mühüm önəm daşıyır.

Xatırladaq ki, sessiya ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi mətbuat xidməti idarəsinin yaydığı məlumatda bu tədbirdə İslam dünyası, eləcə də Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri ilə bağlı bir sıra məsələlərin müzakirə edildiyi bildirilib. Sessiyanın sonunda ölkəmizlə əlaqədar "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması", "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi", "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycanın ərazilərində İslam mədəniyyətinə aid tarixi və mədəni abidələrin dağıdılması" və "Xocalı qırğınının qurbanları ilə həmrəylik" adlı dörd qətnamə qəbul edilib.

Yeri gəlmişkən, İƏT tərəfindən ənənəvi olaraq hər il qəbul olunan bu qətnamələrə bölgədəki son vəziyyət nəzərə alınmaqla yeni müddəalar daxil edilib.

"Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması" adlı qətnamədə ölkəmizin Vətən müharibəsində apardığı ədalət savaşında qazanılan möhtəşəm zəfər nəticəsində əzəli-əbədi torpaqlarımızın düşməndən təmizlənməsi və hərbi əməliyyatların dayandırılması ilə bağlı 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat imzalanması üzv ölkələr tərəfindən alqışlanıb. Eyni zamanda, Ermənistan və Azərbaycan arasında münasibətlərin dövlətlərin suverenliyi, ərazi bütövlüyü, habelə beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması, hörmət edilməsi əsasında normallaşdırılmasına çağırış səsləndirilib. Həmçinin Ermənistanın beynəlxalq hüququ pozaraq, bütün minalanmış ərazilərin hərtərəfli və dəqiq xəritələrini, habelə minalanmış sahələrin yerləşdiyi yerlərə dair digər məlumatları təqdim etməkdən davamlı boyun qaçırması pislənilib və Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin müdafiəsi istiqamətində apardığı səmərəli mübarizə, erməni təcavüzünün ağır nəticələrinin aradan qaldırılması üçün göstərdiyi səylər yüksək dəyərləndirilib.

"Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycanın ərazilərində İslam tarixi və mədəni ziyarətgahlarının dağıdılması və təhqir edilməsi" adlı qətnamədə işğal dövründə Azərbaycan ərazilərindəki İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının dağıdılması, talan edilməsi, oğurlanması, qanunsuz yerdəyişməsi və ya mənimsənilməsi, eləcə də bu obyektlərə qarşı vandallıq aktlarının törədilməsi qətiyyətlə pislənilib, düşməndəndən təmizlənən ərazilərdə yerləşən məscidlərin Ermənistan tərəfindən təhqir olunması şiddətlə qınanılıb. Qətnamədə Azərbaycanın ona dəymiş zərərə görə təzminat tələb etmək haqqı, Ermənistanın isə bu təzminatı ödəmək məsuliyyəti təsdiqini tapıb.

Onu da deyək ki, bir müddət bundan əvvəl İƏT faktaraşdırıcı missiyasınının azad olunan ərazilərlə bağlı hesabatı qəbul edilib. Xatırladaq ki, sözügedən hesabat Ciddədə keçirilən 18-ci sessiya çərçivəsində müzakirə olunub. Hesabatda Azərbaycanın işğaldan azad olunmuş və hücuma məruz qalmış digər ərazilərində törədilən müharibə cinayətləri, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması, milli-mədəni, memarlıq, tarixi və dini abidələrin, o cümlədən, məscidlərin məhv edilməsi, talan və təhqir olunması ilə bağlı çoxsaylı faktlar beynəlxalq insan hüquqları və beynəlxalq humanitar hüquq normalarının pozuntusu kimi qiymətləndirilib.

Hesabatın yekununda Ermənistanın hərbi-siyasi rəhbərliyinin törətmiş olduğu insan hüquq pozuntularının araşdırılması və müvafiq hüquqi qiymətin verilməsi məqsədilə BMT, ATƏT və digər regional təşkilatlar tərəfindən beynəlxalq insan hüquqları monitorinq mərkəzinin yaradılması, Beynəlxalq Qırmızı Xaç Komitəsinin egidası altında Birinci Qarabağ müharibəsi dövründən indiyədək itkin düşmüş azərbaycanlıların tapılması, onların ailə üzvlərinə psixoloji yardımın göstərilməsi məqsədilə çoxtərəfli koordinasiya mexanizminin qurulması, İƏT, Dünya Bankı və İslam İnkişaf Bankı tərəfindən azərbaycanlı məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışını dəstəkləyən layihələrin maliyyələşdirilməsi kimi tövsiyələr də verilib. "Azərbaycan Respublikasına iqtisadi yardım" adlı qətnamədə ölkəmizin ərazilərinin işğaldan azad olunmasının Azərbaycan ərazisindəki bir milyondan çox məcburi köçkün soydaşımızın öz evlərinə təhlükəsiz və layiqli qayıdışına, beləliklə də ciddi humanitar problemlərin aradan qaldırılmasına imkan verəcəyi qeyd olunub. Bu xüsusda üzv ölkələrə, İslam İnkişaf Bankı və digər İslam institutlarına işğaldan azad edilmiş torpaqlara məcburi köçkünlərin geri dönüşünü gerçəkləşdirmək üçün bu ərazilərin bərpasında Azərbaycan hökumətinə və xalqına yardım etməyə çağırış da öz əksini tapıb. Burada, habelə bütün beynəlxalq institutlar Azərbaycanın iqtisadi və sosial inkişaf fəaliyyətini dəstəkləməyə çağırılıb.

İƏT XİN Şurasının 48-ci iclasında "Xocalı qırğınının qurbanları ilə həmrəylik" adlı qətnamə 1992-ci ilin fevral ayında Azərbaycanın Xocalı şəhərində və digər işğal edilmiş ərazilərində Ermənistanın silahlı qüvvələri tərəfindən azərbaycanlı mülki əhaliyə, habelə hərbi şəxslərə qarşı törədilmiş kütləvi vəhşiliklər qəti şəkildə pislənilib və üzv dövlətlər münaqişə dövründə adıçəkilən şəhərdə, həmçinin qəsb olunan digər yaşayış sahələrində törədilən cinayətlərin müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və soyqırımı kimi yerli, eyni zamanda, beynəlxalq səviyyədə tanınması istiqamətində lazımı səy göstərməyə səslənilib. Həmin qətnamədə həmçinin "Xocalıya ədalət!" beynəlxalq təşviqat kampaniyasının fəaliyyəti yüksək qiymətləndirilib və üzv dövlətlər kampaniyanı dəstəkləməyə, onun fəaliyyətinə yaxından qoşulmağa dəvət edilib.

İƏT XİN Şurasının 48-ci iclasının Yekun Bəyannaməsində Qarabağ münaqişəsinin ədalətli həll olunmasının alqışlanması və qəbul edilən dörd qətnamədə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün siyasi, iqtisadi, mədəni və humanitar aspektləri ilə bağlı müddəaların əks olunması bu təşkilatın rəsmi Bakının mövqeyinə xüsusi əhəmiyyət verdiyinin göstəricisidir.

Yeri gəlmişkən, İƏT Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olan dövrdə Azərbaycanın çağırışlarına da biganə qalmayıb və hər zaman rəsmi Bakının haqlı mövqeyini dəstəkləyib. Burada onu da xatırladaq ki, İƏT Xocalı soyqırımını tanıyan təşkilatlardan biri kimi tanınıb.

Qeyd edək ki, İƏT XİN Şurasının 48-ci iclasında bu təşkilat rəsmi İrəvana təcavüzkar ritorikadan əl çəkməsinin, habelə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı yönələn fəaliyyətinə son qoymasının zəruriliyini də xatırladıb.

İƏT XİN Şurasının son iclasında diqqətçəkən bir məqamı da xatırlatmaq istərdik. Belə ki, İƏT dünyanın 57 dövlətini birləşdirir. Ermənistanla birlikdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olan Qazaxıstan və Qırğızıstan da bu qurumda təmsil olunur. Buna baxmayaraq, hər iki dövlət iclasda Azərbaycanın mövqeyini tam dəstəkləyən sənədlərin qəbulunun lehinə çıxış edib.

İƏT üzvləri tərəfindən Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu dövrdə İslam mədəni irsinə aid məscidlərin, ibadət yerlərinin talan edilməsi və dağıdılması vandalizmin təzahürü kimi qəbul edilərək qətiyyətlə pislənilib. Bu yerlərdə yaşayış sahələrinin bərpası üçün Azərbaycana dəstək olmaq məqsədilə adıçəkilən müvafiq qurumlara və üzv dövlətlərə çağırış olunub, Ermənistanın dəymiş zərərə görə məsuliyyəti təsbit edilib. Eyni zamanda, Ermənistanı sülhə məcbur etmək üçün üzv dövlətlərə çağırış edilib, təşkilatın üzvlərinin rəsmi İrəvanla diplomatik əlaqələr qurmaqdan çəkinilməsinin və iqtisadi əməkdaşlığın məhdudlaşdırılmasının zəruriliyi diqqətə çatdırılıb. Ekspertlər bu addımları yüksək dəyərləndirərək, belə vasitələrin Ermənistanın Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmasında da mühüm önəm daşıya bilcəyini vurğulayıblar.

İƏT XİN Şurasının son iclasında yuxarıda adları çəkilən qətnamələrin qəbulu rəsmi İrəvana göstərdi ki, bu təşkilat Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığını unutmur və bu ölkənin yalan təbliğatına inanmır. Ermənistan üçün yeganə yol Azərbaycanın təklifi ilə ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmət əsasında sülh müqaviləsi üzərində işin aparılmasıdır. Yalnız Azərbaycanla sülh müqaviləsinin imzalanmasından sonra Ermənistan İƏT ölkələri ilə faydalı əməkdaşlıq qurmağa imkan əldə edə bilər.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**